

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 74 (23.716)

*24 aprel 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında deyilir:* ***“Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş Dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir”.***

*Dövlət proqramı icra olunur*

## Muxtar respublikanın dayanıqlı inkişafı təmin edilir

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində hərtərəfli inkişaf təmin edilmiş, vətəndaşların sosial rifah halı daha da yüksəlmişdir. Görülən işlərin məntiqi nəticəsi kimi muxtar respublikamızda özəl sektor ildən-ilə inkişaf edir, yeni iş yerləri açılır, geniş infrastruktur layihələri yüksək peşəkarlıqla həyata keçirilir. Qazanılan nailiyyətlərin əsasında dayanan mühüm faktorlardan biri də icrası uğurla davam etdirilən Dövlət proqramlarıdır. Muxtar respublikanın iqtisadi potensialının daha da gücləndirilməsi üçün sosial-iqtisadi həyatın müxtəlif sahələrində kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulan “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuşdur. Ötən dövrdə Dövlət proqramının icrası dinamik inkişafın davam etdirilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi üçün yeni imkanlar yaratmışdır.

İqtisadi strukturun təkmilləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması üçün sənaye sektorunun inkişafı mühüm əhəmiyyət kəsb edir. Mövcud sənaye müəssisələrinin istehsal gücünün genişləndirilməsi ilə yanaşı, yeni sahələrin yaradılması bir tərəfdən məşğulluğun, digər tərəfdən səmərəli təşəbbüskarlığın təmin edilməsində əsaslı rol oynayır. Onu da qeyd etmək lazımdır ki, yeni istehsal sahələrinin sayının çoxalması yerli xammala olan tələbatı daha da artırmaqdadır. Bu tələbatın keyfiyyətli məhsullar hesabına ödənilməsi zərurəti kənd təsərrüfatının inkişafını şərtləndirir. Birinci rübdə proqramda nəzərdə tutulan sənaye və kənd təsərrüfatı sahəsinin inkişafı tədbirləri davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri fevralın 5-də Ordubad rayonunun Nüsnüs kəndində su dəyirmanının istifadəyə verilməsi, həmin ayın 27-də “Gəmiqaya Plastmas Kapsul və Qapaq” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni istehsal xəttinin fəaliyyətə başlaması, martın 31-də “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnika və avadanlıqlarının təqdimatı ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişdir. Dövlət proqramının icrası məqsədilə Ordubad rayonunda “Dəstə Un Dəyirmanı” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti qismən bərpa edilmiş, Babək rayonunda “İlham” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin bərpası, Şərur Sənaye Məhəlləsində 3 korpusun tikintisi davam etdirilmişdir. Dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına Naxçıvan şəhərində odun kömürü, istilik sistemli kombi cihazları, unlu-qənnadı məmulatları və kürə çörəyi istehsalı sahələrinin yaradılması, mebel istehsalı sahəsinin genişləndirilməsi başa çatdırılmışdır.

Birinci rübdə 22,7 hektar sahədə yeni meyvə bağları salınmış, 34,9 hektar sahədə bərpa, 58 hektar sahədə toxumla əkin aparılmış, aqrar sahədə 1946 sığorta müqaviləsi bağlanmışdır. Bu dövrdə 6 heyvandarlıq, 2 arıçılıq, 1 istixana təsərrüfatının yaradılması, 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. “Araz” Elm-İstehsalat Birliyinə Babək rayonunun Babək şəhəri, Kültəpə, Ordubad rayonunun Dəstə, Şərur rayonunun Xanlıqlar və Ələkli kəndlərinin torpaq mülkiyyətçiləri tərəfindən gətirilmiş torpaq nümunələri analiz olunmuş, gübrə normaları hesablanaraq yazılı məlumatlar verilmişdir. Yanvar-mart aylarında 8 ailə təsərrüfatına, ümumilikdə, 94 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmiş, Bakı və Gəncə şəhərlərində yerləşən “Naxçıvan Məhsulları” mağazalar şəbəkəsinə 102 min 514 manat həcmində ailə təsərrüfatı məhsullarının göndərilməsi təmin edilmişdir. “Naxçıvan Məhsulları” publik hüquqi şəxsi tərəfindən ailə təsərrüfatlarından 10 adda ərzaq məhsulları alınaraq qapalı dövlət müəssisələrinin təchizatına yönəldilmişdir. Araq istehsalı ilə məşğul olan 4 ailə təsərrüfatçısına minifiltr qurğusu təqdim olunmuş, bu qurğudan istifadə edən ailə təsərrüfatlarının sayı 53-ə çatdırılmışdır. Birinci rübdə 29 ailə təsərrüfatına istehsal etdikləri məhsulların etiketlərinin hazırlanmasında metodik köməklik göstərilmişdir. Bu dövrdə ailə təsərrüfatlarına 15 kiçikölçülü texnoloji avadanlıq, 1197 tara, 320-dən çox meyvə tingi verilmişdir. Tingçiliklə məşğul olan ailə təsərrüfatlarının sayı 13-ə çatdırılmışdır. Mart ayında Naxçıvan şəhərində təşkil olunan bayram yarmarkasına 177 ailə təsərrüfatçısı tərəfindən müxtəlif çeşiddə məhsulların çıxarılmasının təmin edilməsində məqsəd əhalinin keyfiyyətli və maddi cəhətdən sərfəli ərzaq məhsullarına tələbatının ödənilməsi olmuşdur.





Hər bir ölkədə sosial-iqtisadi tərəqqini şərtləndirən amillərdən biri də yol-nəqliyyat infrastrukturunun inkişafıdır. Çünki müasir tələblərə cavab verən yolların mövcudluğu insanların gündəlik hərəkət imkanlarını təkmilləşdirməklə yanaşı, yerli istehsal məhsullarının daşınmasında səmərəlilik, turizmin inkişafı, şəhər və kəndlərin simasının başdan-başa dəyişməsi deməkdir. Proqramda nəzərdə tutulan yol təsərrüfatı və nəqliyyatın inkişafı tədbirləri çərçivəsində Ali Məclisin Sədri yanvarın 14-də Şərur rayonunun Şəhriyar, fevralın 5-də Ordubad rayonunun Yuxarı Əndəmic-Nüsnüs kənd avtomobil yollarının istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişdir. Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kəndləri üzrə avtomobil yolunun tikintisi, Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması davam etdirilmişdir. Ümumilikdə, birinci rübdə muxtar respublikada 14,6 kilometr uzunluğunda avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanının giriş hissəsinə 1 yeni kartvermə aparatı, inzibati binanın ətrafına 1 kamera quraşdırılmışdır. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Culfa Lokomotiv Deposunda lokomotivlər 12 dəfə texniki baxışdan keçirilmiş, 4 dəfə cari təmir işləri aparılmışdır. Culfa İstismar Vaqon Deposunda 50 vaqon təmir edilmişdir. Həmçinin Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın tikintisi, Naxçıvan Rabitə Qovşağının anbar binasında təmir, Culfa İstismar Vaqon Deposunun, Dərəşam-Nehrəm mənzilinin 433-cü kilometrində yerləşən Təhlükəsizlik Komandasının, Şərur Dövriyyə Deposunun və Şərur Elektrik Təmas Şəbəkəsinin binalarında yenidənqurma işləri davam etdirilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, Dövlət proqramının icrası muxtar respublikada quru, hava və dəmir yolu nəqliyyatının kompleks inkişafını təmin etməkdədir.

Elmi əsaslara söykənən iqtisadi mühitdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı cəmiyyətin intellektual potensialının vacib göstəricilərindən biridir. Dövlət proqramının icrası muxtar respublikamızda müasir informasiya məkanının qurulması, yeni nəsil informasiya texnologiyalarının mənimsənilməsi və onun imkanlarından istifadə edilməsi sahəsində geniş şərait yaratmaqdadır. Rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri çərçivəsində Ali Məclisin Sədri yanvarın 14-də Şərur rayonunun Şəhriyar, fevralın 5-də Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kənd mərkəzlərində rabitə evlərinin, martın 11-də Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binasının istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişdir. Birinci rübdə 9 min 756 metr, o cümlədən “Evədək optika” layihəsi çərçivəsində 27 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmiş, 2 min 124 abonent internetlə təmin olunmuş, 613 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilmişdir. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara 140 qrup üzrə 353 dinləyicinin cəlb edilməsi bu sahədə kadr hazırlığına göstərilən diqqətin mühüm təzahürüdür.

Dövlət proqramının icrası muxtar respublikada abadlaşan şəhər və kəndlərin sayının daha da çoxalmasına şərait yaradır. Ən ucqar dağ kəndlərində yaradılan müasir infrastruktur Naxçıvanın öz yaraşığı ilə göz oxşamasına səbəb olur. Onu da qeyd etmək lazımdır ki, qurulan hər yeni sosial obyekt yeni iş yerləri və sosial rifah deməkdir. Bu tədbirlər çərçivəsində Ali Məclisin Sədri yanvarın 14-də Şərur rayonunun Şəhriyar, fevralın 5-də Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic kəndlərində xidmət və kənd mərkəzlərinin, yanvarın 19-da Şahbuz şəhərində yeni yaşayış binasının, martın 11-də Sədərək rayonunda Bayraq Meydanının istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişdir. Ali Məclisin Sədri Şəhriyar və Nüsnüs kəndlərində yeni məktəb binalarının, bu kəndlərdə, eləcə də Yuxarı Əndəmic və fevralın 17-də Şahbuz rayonunun Ağbulaq kəndində həkim ambulatoriyalarının açılışını etmişdir. Həmçinin Şəhriyar kəndində uşaq musiqi məktəbi, fevralın 15-də Naxçıvan Dövlət Universitetində Xarici dillər fakültəsi, yeni mərkəz, kabinə və laboratoriyalar, həmin ayın 23-də Naxçıvan şəhərində yeni tələbə yataqxanası istifadəyə verilmişdir. Ali Məclisin Sədri yanvarın 19-da Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün yaradılan yeni iş şəraiti ilə, fevralın 5-də Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpası istiqamətində görülən işlərlə maraqlanmışdır.

Mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik gömrük sistemi iqtisadi mənafeyin və təhlükəsizliyin qorunması deməkdir. Muxtar respublikanın daxili bazarının qorunmasında və beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsində müasir gömrük sistemi müstəsna rol oynayır. Proqramda gömrük infrastrukturunun inkişaf etdirilməsini nəzərdə tutan tədbirlər çərçivəsində Ali Məclisin Sədri martın 11-də Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün tikilən kompleksdə görülən işlərlə maraqlanmışdır. Birinci rübdə Naxçıvan Hava Nəqliyyatında, Culfa və Şahtaxtı Gömrük idarələrində, ümumilikdə, 1 rentgen yoxlama-baxış qurğusu,



1 stasionartipli dezinfeksiya baryeri və 2 məsafədən istilikölçən termal kameranın quraşdırılması bu sahədə görülən işlərin davamlı xarakter daşıdığını deməyə əsas verir.

Muxtar respublikada iqtisadiyyatın və sosial həyatın dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, energetika sistemi ilə də sıx bağlıdır. Dövlət proqramının icrası muxtar respublikanın elektrik enerjisi sisteminin dayanıqlılığını və təhlükəsizliyini daha da möhkəmləndirməkdədir. Proqramda nəzərdə tutulan enerji təchizatının yaxşılaşdırılması tədbirləri çərçivəsində birinci rübdə muxtar respublikanın şəhər və rayonlarında 11,4 kilometr uzunluğunda yeni elektrik verilişi xətləri çəkilmiş, 37,3 kilometr uzunluğunda elektrik xətləri təmir edilmiş, 7 yeni transformator yarımstansiyası quraşdırılmış, 0,8 kilometr uzunluğunda hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz edilmişdir. Şərur rayonunda 5 meqavat gücündə Günəş, Culfa rayonunda 1 meqavat gücündə Külək-Günəş Hibrid, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilmişdir. Bütün bunlarla yanaşı, yanvar-mart aylarında muxtar respublikada 90 smartkarttipli qaz sayğacı quraşdırılmış, Naxçıvan Şəhər Qaz Paylayıcı Stansiyasında yeni Qaz Kompressor Stansiyasının tikintisi davam etdirilmişdir.

Su ehtiyatlarından səmərəli istifadə həm sosial rifahın təmin edilməsi, həm də sənayenin və kənd təsərrüfatının inkişafı üçün həlledici rol oynayır. Sosial-iqtisadi sahədə əldə olunan uğurların davamlılığını təmin edən əsaslardan biri də əhalinin içməli su təminatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasıdır. Eyni zamanda meliorasiya və irriqasiya sahəsində həyata keçirilən böyük quruculuq işləri və bu sahədə geniş potensialın yaradılması kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında xüsusi əhəmiyyətə malikdir. Proqramda nəzərdə tutulan su təchizatının, kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, meliorasiya və irriqasiya tədbirləri çərçivəsində birinci rübdə 13,24 kilometr içməli su xətlərində,

*Ardı 2-ci səhifədə*

531 metr kaptajlarda təmir-bərpa işləri aparılmış, Şahbuz rayonunun Külüs kəndində 1 subartezian quyusunun qazılmasına başlanılmışdır. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində 5,15 kilometr içməli su xətti çəkilmiş, 514 evin içməli su, 362 evin kanalizasiya xəttinə birləşməsi aparılmışdır. Torpaqların su təminatını yaxşılaşdırmaq üçün 2,66 kilometr suvarma boru xətlərində təmir işləri aparılmış, 15,77 kilometr yeni suvarma boru xətləri çəkilmişdir. Birinci rübdə 72,56 kilometr kanal, 63,57 kilometr ara arx və 15,1 kilometr kollektor lildən təmizlənmişdir. Ümumilikdə, 99,4 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə, ümumilikdə, 750 metr selə qarşı istiqamətləndirici bənd tikilmişdir. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 1,22 kilometr ana, 11,48 kilometr paylayıcı boru xətti çəkilmiş, 18 hovuz və hidrant quraşdırılmışdır. Birinci rübdə sahibkarlara lizinq yolu ilə 52 dəst suvarma və 2 dəst damlama sistemi verilmişdir.





Dövlət proqramının mühüm prioritet istiqamətlərindən biri investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsindən ibarətdir. Sahibkarlığın inkişafının təmin edilməsi, öz növbəsində, məşğulluğun artırılması üçün yeni imkanlar açır və özəl sektorda maliyyə dayanıqlılığının möhkəmləndirilməsi ilə nəticələnir. Fevralın 27-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla işgüzar tədbir keçirilmişdir. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: ***“Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və özəl bölməyə qayğı ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu iqtisadi inkişaf strategiyasının əsas istiqamətidir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu yolun uğurla davam etdirilməsi Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Muxtar respublikada özəl bölməyə dövlət dəstəyi artırılmış, biznes subyektlərinin qeydiyyat və lisenziya sistemi sadələşdirilmiş, əlverişli investisiya mühiti yaradılmışdır...”***

Dövlət proqramının icrası istiqamətində birinci rübdə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən kiçik və orta sahibkarlara 4 milyon 785 min manat həcmində kreditlər verilmişdir. Bu dövrdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 18 mikrosahibkarlıq subyektinə 388 min 200 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 14 istehsal sahəsinin yaradılması başa çatdırılmış, 29 sahənin yaradılması davam etdirilmişdir. Yeni yaradılan istehsal sahələrində 73 iş yeri açılmış, 602 yeni iş yerinin açılması istiqamətində işlər davam etdirilmişdir. Yanvar-mart aylarında 5-i onlayn qaydada keçirilmiş 9 beynəlxalq tədbirdə 21 sahibkarlıq subyektinin 23 nümayəndəsinin iştirakı təmin olunmuşdur. 9 sahibkarlıq subyektinin 2020-ci ildə ixrac etdiyi məhsullara görə əldə etdikləri mənfəət vergidən azad edilmişdir. “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 455 laboratoriya təhlili aparılmış, təsərrüfat subyektlərinə məhsulların texniki normaları və standartları üzrə 61 halda informasiya dəstəyi göstərilmişdir. Birinci rübdə ixrac qabiliyyətli məhsullar üzrə 9 adda əmtəə nişanının qeydiyyata alınması istiqamətində icra proseduru başlanılmış, əmtəə nişanının mühafizəsi üzrə 2 şəhadətnamə, 7 adda məhsulun 7 xarici ölkəyə və Bakı şəhərinə ixracı məqsədilə 18 mənşə sertifikatı verilmişdir.

*Dövlət proqramının icrasına uyğun olaraq Naxçıvan şəhərində 20 nəqliyyat infrastrukturu obyektinə 319 ünvan lövhəsi, 1876 giriş nömrə nişanı quraşdırılmışdır. Dövlət əmlakının özəlləşdirilməsindən 142 min 974,51 manat vəsait daxil olmuş, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən 50 min 163 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.*

**“Şərq qapısı”**

***26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür***

# Əqli mülkiyyət bəşəriyyətin sərvətidir

***2000-ci ildən başlayaraq Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təşəbbüsü ilə aprel ayının 26-sı dünyada “Beynəlxalq Əqli Mülkiyyət Günü” kimi qeyd edilir. Cəmiyyətin iqtisadi-mədəni inkişafının əsasında elm, elmin əsasında isə insanın yaradıcı gücü, düşüncə və təfəkkürü dayanır. Bu baxımdan biliklərin əldə olunması və onun vasitəsilə tələbatların reallaşdırılması qədər insan beyninin məhsulu olan əqli mülkiyyətin də ən üstün səviyyədə cəmiyyətin sərvətinə çevrilməsi bütün dövrlərin aktual məsələsi olub. Belə ki, əqli mülkiyyət sahibinə verilən qiymət səbəb-nəticə əlaqələri baxımından daha da dəyər qazanır və son nəticədə, bütün bəşəriyyətin rifahına xidmət edən maddi və mədəni sərvətə çevrilir.***

Əqli mülkiyyətin qorunması və bunun üçün zəruri qanuni bazanın yaradılması cəmiyyətin mühüm bir sosial sifarişi olub qədim tarixə malikdir. Hələ qədim Roma dövründə yazıçı və şairlər öz əsərlərinin başqası tərəfindən özününküləşdirilməsinin qarşısını almaq üçün hüquqi yollar axtarırdılar. Şübhəsiz, bəşəriyyətin sonrakı inkişaf mərhələsində baş vermiş bütün innovativ yeniliklər, ideya, ixtira və kəşflər də yaradıcı əməyin məhsulu kimi intellekt sahibinin adına nüfuz gətirib, bir çoxları üzərindən yüzlərlə il keçsə də, hələ də xatırlanır. Elektrik lampasından tutmuş reaktiv mühərriklərə, yaxud bu gün hər kəsin yaxşı tanıdığı antibiotiklərə qədər yüzlərlə kəşf və ixtira sahibinin adı məhz bu yolla tarixə düşüb.

Əqli mülkiyyət hüququ insanın ənənəvi olaraq tanınan əmlak, yaxud əşya hüququndan heç də az əhəmiyyətli deyildir. Əgər əmlaka, yaxud qiymətli əşyalara malik olmaqla, insan öz minimum yaşayış hüquqlarını reallaşdıra bilirsə, sahib olduğu əqli mülkiyyəti sayəsində isə hər bir şəxs öz ciddi kommersiya maraqlarını ödəyir, cəmiyyətdə layiq olduğu statusla tanınır. Ona görə də inkişaf edən hər bir ölkədə əqli mülkiyyət məsələləri dövlət siyasəti kimi müəyyənləşdirilir və qanuni yollarla onun tənzimlənməsi həyata keçirilir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi dövründə əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi istiqamətində mühüm işlər görülmüş, əqli mülkiyyətin qorunması və inkişafına diqqət artırılmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1997-ci ildə “Patent haqqında”, 1998-ci ildə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis etdiyi Konvensiyaya və Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurmuşdur. Yaradılmış möhkəm qanunvericilik bazası və əldə olunmuş təcrübə dinamik inkişaf edən Azərbaycan cəmiyyətində güclü insan kapitalına söykənən innovativ iqtisadiyyatın bərqərar edilməsi üçün etibarlı zəmin formalaşdırmışdır.

Bu gün ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun inkişafına yönəldilən məqsədyönlü iqtisadi siyasət təcrübələrə və insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət etməkdədir. Cəmiyyətimizdə əqli mülkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur. Sürətlə dəyişən dünyada Azərbaycan getdikcə öz mövqelərini möhkəmləndirir və layiqli yerini tutur. “Davamlı inkişafın Azərbaycan modeli” bir sıra vacib amilləri, o cümlədən biliklərə əsaslanan tərəqqini, informasiya-kommunikasiya texnologiyaları və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirir. ***“İndi dünyada inkişaf təbii sərvət üzərində deyil, bilik, müasir texnologiya üzərində qurulur. Bu səbəbdən biz təbii sərvətlərin insan kapitalına çevrilməsinə çalışırıq”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində əqli mülkiyyətin, kreativ sənayenin inkişaf etdirilməsi kimi məsələlər də öz əksini tapıb. Azərbaycan yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olsa da, XXI əsri xammal ixracından hazır məhsul ixracına keçid üçün həlledici dövr kimi qiymətləndirən dövlət başçısı qəbul etdiyi mühüm dövlət sənədlərində əqli mülkiyyətin, innovativ sənayenin inkişaf etdirilməsi kimi məsələləri də həmişə ön plana çəkmişdir.

İxtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər ölkəmizdə beynəlxalq təcrübəyə uyğunlaşdırılmış normativ-hüquqi aktlarla tənzimlənməkdədir. 2012-ci ildə “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunması bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir. Ölkəmiz əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə uğurla inteqrasiya olunmuş, yaradıcı fəaliyyətin nəticələrinin hüquqi mühafizəsinə əlverişli zəmin yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında da əqli mülkiyyət hüquqlarının qorunmasına ciddi diqqət yetirilir. Xüsusən son dövrlərdə muxtar respublikada innovativ iqtisadiyyata keçid istiqamətində qəbul olunmuş mühüm dövlət qərarları, startap layihələrindən tutmuş Naxçıvan Dövlət Universitetində Texnopark yaradılması üçün verilən qəraradək keçilən mərhələdə intellektual kapitalın nə qədər əhəmiyyətli olduğunu görməkdəyik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən muxtar respublikada STEAM layihəsinin tətbiqinə başlanılması da bu sahədə həyata keçirilən işlərin məntiqi davamıdır. Artıq Heydər Əliyev adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi yaradılmış, 20-dək ali və tam orta məktəbdə, lisey və məktəbdənkənar təhsil müəssisələrində STEAM kabinələri qurulmuş, 40-dək ümumtəhsil məktəbində isə bu iş davam etdirilir. STEAM kabinələrinin lazımi avadanlıqlarla təchiz olunması, həmçinin təlimə aid metodik vəsaitlərin, eləcə də VI və VII sinif dərslik və proqramların çap olunaraq istifadəyə verilməsi uşaq, yeniyetmə və gənclərdə XXI əsr bacarıqlarını, kreativlik, tənqidi düşüncə, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini inkişaf etdirir, yaxın gələcəkdə yeni ixtiraların təməlini qoyur, müasir dövrdə yeni əqli mülkiyyətin formalaşmasına şərait yaradır.

Dövlətin bu sahənin inkişafına göstərdiyi yüksək diqqət əqli mülkiyyətin qorunması sisteminin səmərəli formalaşdırılması üçün də ciddi əsaslar yaratmışdır. Muxtar respublika iqtisadiyyatında intellektual kapitaldan aktiv istifadənin və texnoloji inkişafın davamlı olaraq stimullaşdırılması hazırda həyata keçirilən sosial-iqtisadi inkişafın prioritet istiqaməti kimi diqqət mərkəzində saxlanılmaqdadır.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısında muxtar respublikada innovasiyalı inkişafla bağlı yürüdülən iqtisadi siyasəti dəstəkləyən xidmətlərin göstərilməsi, əqli mülkiyyətin mühafizəsinin formalaşdırılması və müasir dövrün tələblərinə uyğunlaşdırılaraq sənayedə tətbiqinin dəstəklənməsi kimi mühüm funksional vəzifələr dayanır. Xidmət sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər həyata keçirir, muxtar respublikada patent sahəsinin inkişafını diqqət mərkəzində saxlayır. Yeni texnologiyaların iqtisadiyyata tətbiqini dəstəkləmək, bu istiqamətdə əqli mülkiyyətin rolunu artırmaq və innovasiyaların reallaşdırılmasına töhfə vermək əsas hədəflərdəndir. Xidmət tərəfindən patent sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinə dair iddia sənədlərinin qəbulu və ekspertizası həyata keçirilir, dövlət reyestri aparılır, bu sahədə hüquqların qorunması və beynəlxalq sistemlərə inteqrasiya təmin olunur.

Fəaliyyəti dövründə Patent şöbəsinə ixtira, sənaye nümunəsi, faydalı model, əmtəə nişanı və coğrafi göstəricilər üzrə 2192 müraciət daxil olmuş və müvafiq prosedurlara uyğun olaraq dövlət ekspertizası aparılmışdır. Bu dövr ərzində iddiaçılara, ümumilikdə, 1237 mühafizə sənədi verilmişdir. Əqli mülkiyyət hüquqlarının qorunmasına, bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə və əqli yaradıcılıq nəticələrindən qeyri-qanuni istifadənin qarşısının alınmasına xüsusi diqqət yetirilir.

Muxtar respublikada əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların istehsalatda tətbiqi və patentlərin beynəlxalq mühafizəsi işi bundan sonra da üstün istiqamət kimi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

# Tələbələrlə görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Naxçıvan Dövlət Texniki Kollecinin nazirliyin hamiliyinə verilmiş Rabitə qovşaqları və kommunikasiya sistemləri ixtisası üzrə təhsil alan tələbələri ilə görüş keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar naziri Vüsal Sevdimaliyev açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamının icrası ilə bağlı tədris müddəti ərzində təhsil alan tələbələrin təcrübə keçmələri üçün zəruri işlər həyata keçirilir, onlar nazirliyin və tabeli qurumlarının fəaliyyəti ilə tanış edilir, maarifləndirici görüş və seminarlar təşkil olunur. Həmçinin nazirlik əməkdaşlarının Naxçıvan Dövlət Texniki Kollecində pedaqoji fəaliyyətlərinə şərait yaradılır, müvafiq fənlər tədris edilir. Bunlarla yanaşı, kollecin aid ixtisas üzrə məzunlarının məşğulluğu da diqqətdə saxlanılır.

Nazir vurğulayıb ki, müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Bu tələbatı ödəmək məqsədilə kadr hazırlığına diqqət artırılacaq, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə ediləcəkdir.

Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov çıxışında bildirib ki, təcrübə keçirilən müddətdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən tələbələrin təcrübə keçməsi üçün hər cür şərait yaradılıb, tələbələr yeni nəsil telekommunikasiya sistemləri, avtomat telefon stansiyalarının iş prinsipləri və digər vasitələrlə əyani tanış olublar.

Nazirliyin Telekommunikasiya və radiotezliklərin qeydiyyatı şöbəsinin müdiri Azər Seyidov çıxışında müasir standartlara cavab verən yeni nəsil telekommunikasiya sistemləri və xüsusiyyətləri, avtomat telefon stansiyaları və onların iş prinsipləri, rəqəmli televiziya və peyk yayımı, tezlik diapazonları və zolaqları, məftilli və fiber-optik xətlərin çəkilməsi, muxtar respublikada istifadə olunan müasir internet xidmətləri haqqında məlumat verib.

Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Qumral Əliyevanın və kollecin tələbəsi Tükəzban Mustafazadənin mövzu ilə bağlı çıxışları dinlənilib.

Tədbirdə tələbələrə müxtəlif müasir proqramlar, analoq və rəqəmsal elektronika, süni intellekt, nanotexnologiya, robotexnika, mexatronika və 5G texnologiyaları barəsində hazırlanmış slaydlar vasitəsilə ətraflı məlumat verilib, şəbəkələrin çəkilməsində istifadə olunan kabellərin RJ-45 başlıq hissəsinin birləşməsi, yeni nəsil avtomat telefon stansiyalarının iş prinsipləri ilə əyani tanışlıq olub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Aprelin 25-i Sahibkarlar Günüdür*

# Muxtar respublikada sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətini təşkil edir

***Ümummilli liderimiz Heydər Əliyevin müstəqil ölkəmizə rəhbərliyinin ilk illərindən iqtisadi və dövlət idarəetmə sistemi sahəsində aparılan kompleks islahatlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlığın formalaşmasına güclü təkan vermişdir. Müstəqil Azərbaycanın memarı olan ulu öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Bütün bunlar isə sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial - iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.***



Müstəqil ölkəmizdə bu gün sahibkarların rolunun artırılmasına xüsusi diqqət yetirilir. Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında "Sahibkarlar Gününün təsis edilməsi haqqında" 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilir. Sahibkarlar Gününün təsis olunması ölkənin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında sahibkarların fəaliyyətinə verilən yüksək qiymətlə bərabər, sahibkarlığın, xüsusən də qeyri-neft sektorunun inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Ölkə rəhbərinin dediyi kimi: ***"...Dövlət siyasəti, sahibkarlığa göstərilən həm siyasi dəstək, mənəvi dəstək, maliyyə dəstəyi və sahibkarlığın inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir".***

Böyük uzaqgörənliklə işlənib hazırlanmış və həyata keçirilən iqtisadi inkişaf strategiyasının muxtar respublikamızda da uğurla davam etdirilməsi müasir və güclü infrastrukturun qurulmasına, özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına zəmin yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülmüş, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılmışdır.

Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. 2020-ci ildə muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən 37 milyon 676 min 800 manat kredit verilmişdir ki, bunun 15 milyon 577 min manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşmüşdür. Ümumilikdə, 2000-ci ildən ötən dövr ərzində fond tərəfindən 1529 layihənin maliyyələşdirilməsinə 169 milyon manatdan çox güzəştli kreditlər ayrılmışdır. Həmin vəsait sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunmuşdur.






Müasir dövr muxtar respublika iqtisadiyyatında özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın rolunun daha da güclənməsi ilə xarakterizə olunur. Ailə təsərrüfatlarının inkişaf etdirilib, onların kiçik biznes subyektinə çevrilməsi üçün həyata keçirilən dəstəkləyici tədbirlər, bu mənada, sahibkarlığın da genişləndirilməsi üçün əlverişli imkanlar yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vurğuladığı kimi: ***"Sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir".*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər planlarının təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün daha geniş imkanlar açmışdır. Belə ki, 2020-ci ildə 49 ailə təsərrüfatına 604 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilmişdir.

Muxtar respublikada sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 30 sentyabr tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Fərmanına müvafiq olaraq bu sahədə ardıcıl tədbirlər görülür. Bu istiqamətdə tədbirlər 2020-ci ildə də davam etdirilmiş, sahibkarlıq subyektləri "Nəzarət kitabçası" ilə təmin olunmuş, xüsusi fəaliyyət növləri üzrə 827 lisenziya, 390 icazə verilmiş, "Qaynar xətt" vasitəsilə 5051 sahibkarlıq subyekti ilə maarifləndirmə istiqamətində iş aparılmış, sahibkarların problemləri ilə bağlı sorğuları nazirliyin səlahiyyətləri daxilində həll edilmişdir.



Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. Muxtar respublikada iqtisadi fəallığın artırılması, ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya və ixrac təşviqi mexanizminin tətbiqi öz töhfəsini verir. 2020-ci ildə 3 milyon 360 min manat dəyərində investisiya təşviqi və təsdiqedici sənədinin, 23 halda ixrac əməliyyatı üzrə 43 min manat məbləğində ixrac təşviqinin ödənilməsi təmin edilmişdir. Ümumilikdə, 2016-cı ildən etibarən 16 layihə üzrə 72 milyon 773 min 113 manat məbləğində investisiya təşviqi sənədi, 56 ixrac əməliyyatı üzrə isə 119 min 366 manat ixrac təşviqinin ödənilməsi həyata keçirilmişdir.

Özəl sektor öz məhsulları ilə daxili bazarı təmin edir, eyni zamanda bu məhsulların ixrac potensialı da ilbəil artır. Muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı müəssisələrdə istehsal olunan vafli məhsulları, tütün məmulatları, travertin, mərmər, mebel məmulatları, mineral sular, kapsul preformaları 2020-ci ildə Gürcüstan, Türkiyə, Estoniya, ABŞ, İraq, İran, Türkmənistan, Rusiya, Əfqanıstan, Çin, BƏƏ, Yəmən, Oman Sultanlığı, Belçika Krallığı olmaqla, 12-dən çox ölkəyə ixrac olunmuş, muxtar respublikada istehsal olunan məhsulların ixracı məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 127 halda mənşə sertifikatının verilməsi təmin edilmişdir.

Həyata keçirilən kompleks islahatlar onu deməyə əsas verir ki, muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilmişdir. Bu gün muxtar respublikada minlərlə sahibkarlıq subyektinin fəaliyyət göstərməsi, xarici iş adamlarına əlverişli mühitin yaradılması, ümumi daxili məhsul istehsalında özəl bölmənin payının artaraq 88 faizi ötməsi bu siyasətin real bəhrələridir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublika iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir. Bu məqsədlə 2020-ci ildə 138 layihə üzrə istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 42 layihənin icrası davam etdirilmişdir.

Artıq muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 127 növdə, 608 çeşiddə ərzaq, 257 növdə, 925 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 384 növdə, 1533 çeşiddə məhsul istehsal olunur. İstehsal edilən 108 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaratmışdır.

Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə töhfə verir. Bu səbəbdən də yaradılan şəraitdən və göstərilən dövlət dəstəyindən səmərəli istifadə etmək, muxtar respublika iqtisadiyyatının inkişafına töhfə vermək sahibkarların qarşısında duran əsas vəzifə olmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Sahibkarlar cəmiyyətin ən təşəbbüskar, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalatda tətbiq edən sosial təbəqəsidir. Cəmiyyətin sosial təbəqəsi kimi onlar yaradılmış şəraitdən, maliyyə imkanlarından, texnikadan, torpaqdan istifadə edirlər. Bu gün dövlət sahibkarlığın inkişafı üçün hər cür dəstəyi göstərir. Bundan sonra da göstərəcəkdir. Sahibkarlar da, öz növbəsində, dövlətin və cəmiyyətin inkişafı üçün öz dəstəyini göstərməlidirlər... Bu yolla gedərək, dövlət-sahibkar-işçi münasibətlərində qarşılıqlı inam, hörmət və etibarı daha da möhkəmləndirərək qarşıda dayanan vəzifələrin icrasına nail olmalıyıq".***

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin***
***mətbuat xidməti***

# Sürətli poçt xidmətlərinin göstərilməsində rəqabət artır

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublika sakinlərinə sürətli poçt xidmətlərinin göstərilməsi məqsədilə karqo şirkətlərinə lisenziya verilməsi istiqamətində müvafiq işlər həyata keçirilir.*

Görülən tədbirlər sırasında növbəti addım olaraq bu günlərdə "Aras Karqo", "Nurlu Karqo" və "Etibarlı Karqo" Məhdud Məsuliyyətli cəmiyyətlərinə sürətli poçt xidməti altnövünü həyata keçirmək üçün xüsusi lisenziyalar təqdim olunub. Belə lisenziyaların verilməsi muxtar respublikada karqolar arasında sağlam rəqabəti artırır ki, bu da hər bir karqo şirkətindən öz üzərində ciddi işləməyi tələb edir. Sürətli poçt xidmətlərinin göstərilməsi, xidmətlərin tarifləri, qadağan olunmuş və ya məhdudlaşdırılmış əşya və



malların göndərilməsi, bağlamaların qəbulu, qablaşdırılması, göndərişlərin çatdırılma müddətləri zamanı karqo şirkətlərinin üzərinə böyük iş düşür. Vətəndaşlara daha yüksək və keyfiyyətli xidmət göstərilməsinə zəmin yaradılır.

Xatırladaq ki, artıq "Sürət Karqo" və "Naxçıvan Karqo" MMC də fəaliyyətlərini xüsusi lisenziya ilə həyata keçirir. Həmin şirkətlər sürətli poçt göndərişlərinin izlənməsi, həm də sosial şəbəkələr üzərindən onlayn xidmət göstərməklə də vətəndaşların məmnunluğunu artırmağa çalışırlar. Eyni zamanda sakinlər üçün şəxsi kabinetindən istifadə edərək istədikləri əşya və geyimləri onlayn si-



fariş etmək, həmçinin bağlamaların göndərilməsi və digər məlumatları görmək imkanı yaradılır.

Məlumat üçün bildiririk ki, sürətli poçt xidmətləri ilə məşğul olmaq istəyən şəxslər real iş vaxtı rejimində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində yaradılmış komissiyaya müraciət edə bilərlər. Lisenziyanın verilməsi üçün komissiyaya sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər müvafiq sənədlərin surətlərini təqdim etməlidirlər. Muxtar respublikanın ən azı 3 inzibati ərazi vahidində 20 kvadratmetrdən az olmayaraq saxlanma anbarı ilə təmin edilmiş nümayəndəliyin olması, fəaliyyət göstərilən obyektlərdə yanğın təhlükəsizliyi və videomüşahidə sistemlərinin quraşdırılması, çatdırılma və kuryer fəaliyyətinin təşkili üçün mülkiyyət və ya icarə əsasında istifadəsində ən azı 2 yük avtonəqliyyat vasitəsinin olması, lisenziyanın verilməsindən imtina edilmədikdə, lisenziya verilməsinə görə dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd də



tələb olunan şərtlər sırasındadır.

Qəbul edilmiş qaydalar muxtar respublikada bundan sonra da sürətli poçt xidmətlərinin daha təkmil formada inkişafına və müştərilərə yüksəkkeyfiyyətli xidmətlər göstərilməsinə geniş imkanlar yaradacaq.

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar***
***Nazirliyinin mətbuat xidməti***

***Vətən müharibəsi qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyev Kəlbəcərdə doğulmuşdu. Ali hərbi təhsil aldıqdan sonra ölkəmizin müxtəlif sərhəd bölgələrində ön xətlərdə xidmətini davam etdirmişdi. 8 ilə yaxın idi ki, Naxçıvanda qulluğa başlamışdı. 27 sentyabrda başlanan azadlıq mücadiləmizdə Naxçıvandan gedən hərbçilərimiz arasında o da var idi. Artıq qəhrəman şəhidimiz Bakı şəhərindəki II Fəxri xiyabanda uyuyur. Xəyali müsahibim torpaqlarımızın suverenliyi, azadlığı uğrunda qəhrəmancasına döyüşən, ən ali məqama ucalmış polkovnik-leytenant Anar Əliyevdir. Bəli, şəhid, Vətən müharibəsi qəhrəmanı Anar Əliyev...***

*Əfsanəyə dönən ömürlər*

## "Hərbçi olmaq arzum Kəlbəcərdəki evimizin yanmış divarlarının görüntülərini gördükdən sonra yaranmışdı"



*–Belə tanış olacağımızı təsəvvür etməzdim...*

– Amma mən bu peşəni seçəndə, elə bil ki, bilirdim bunu…Bir gün sonumuzun əbədi behişt, əbədi başlanğıc olacağını...

*– Peşmansanmı?*

– Əsla... İnsan anası uğrunda etdiklərinə peşman ola bilərmi? Vətən də bizim anamızdır. Biz Vətən uğrunda seçdik bu yolu. Sonunda bizi nələrin gözlədiyini bilərək. Axı şəhid qanı axmayan torpaqdan Vətən olmaz.

*– Eşitdim ki, qorxurdun, şəhidim, qorxurdun ki, birdən səni döyüşə göndərməzlər, səbirsizlənirdin...*

– Bəli, 19 il idi ki, bir hərbçi kimi həmin günü gözləyirdik. Bu təkcə mənə aid deyil. Bütün yoldaşlarım səbirsizlənirdi. Döyüşə getmək üçün əmr gözləyirdik. Yağı tapdağında qalan torpaqlarımızı azad etməkdə iştirakımızın olmasını istəyirdik. Uzun müddət idi ki, istər öz hərbi, istərsə də müxtəlif dövlətlərdə iştirak etdiyimiz təlimlərdə bu gün üçün hazırlayırdıq özümüzü. Nəhayət ki, həmin gün, həmin göstəriş gəldi və mən də yoldaşlarımla bərabər Vətənin harayına yollandım. İlk döyüş günlərindən etibarən torpaqlarımızın işğaldan azad olunması uğrunda əlimizdən gələni etdik. Amma ən böyük arzuma çata bilmədim. Çünki doğulduğum Kəlbəcər rayonuna qələbə rəmzi – üçrəngli bayrağımızı sancmaq ən böyük arzum idi. Hərbçi olmaq istəyim Kəlbəcərdəki evimizin yanmış divarlarının görüntülərini gördükdən sonra yaranmışdı. Onu da deyim ki, sonralar xidmətə başladığım Naxçıvan Muxtar Respublikası da mənə elə Kəlbəcər qədər doğmalaşdı. Naxçıvan Əlahiddə Ümumqoşun Ordu məni tam bir hərbçi kimi yetişdirdi. Burada hərbçilərə, hər bir əsgərə, zabitə göstərilən diqqət və qayğı, ümumqoşun ordunun tərkibində qatıldığımız Türkiyə Respublikası ilə birgə keçirilən, eləcə də daxili təlimlər peşəkar hərbçi kimi formalaşmağımızda, bugünkü qələbəmizdə böyük rol oynadı.

*– Bu arzundan da xəbərdaram, komandir. Həmin torpaqlara bayraq sanca bilməsən də, yəqin ki, xəbərin var. Döyüş yoldaşların səndən sonra azad etdikləri torpaqlarımıza, o cümlədən Kəlbəcərə bayrağı səni anaraq asdılar. Artıq sən məcburi köçkün deyilsən.*

– Xəbərdaram. Behiştdə görüşdüyüm döyüş yoldaşlarım müjdəni artıq veriblər. Bilirəm ki, doğulduğum, amma illərdir ki, həsrət qaldığım ana yurdumu Ali Baş Komandanımız bir damla şəhid qanı axıtmadan azad edib. Müjdəli xəbəri aldığım gün ruhum pərvazlanıb Kəlbəcər dağlarını ziyarət etdi. Mən cismən o torpaqlara qayıda bilməsəm də, övladlarım, doğmalarım, yüzlərlə elindən-obasından didərgin düşmüş, illərdir ki, məcburi köçkün damğası ilə yaşayan insanlar yurdumu ziyarət edəcəklər. Bax əsl xoşbəxtlik də budur! Şanlı bayrağımız ana yurdumda dalğalandıqca onun kölərində bir xoşbəxtlik tapır ruhum.

*– Ağır döyüşlərdə düşmənin qəfil güllləsi tək sənə yox, səni sevən bütün xalqına dəydi...*

– Düşmən gülləsi qəfildən gözümü itirməyimə səbəb olsa da, yoldaşlarımın qəhrəmanlığını behişt gözü ilə gördüm. Hiss edirdim ki, artıq mən şəhadətə qovuşuram. Mənə yardım edən həkim də elə orada vuruldu. Mənimlə birlikdə həmin döyüşdə bir neçə igidimiz də şəhadətə yüksəldi. Lakin bildiyiniz kimi, qanımız yerdə qalmadı. Ordumuz, nəinki bizim, bir zamanlar həmin torpaqlardan didərgin salınmış hər bir soydaşımızın qisasını aldı. Bu, haqqın, ədalətin qələbəsi idi. Ona görə də bu gün artıq biz rahat uyuyuruq, cənnətimizdə xoşbəxtik. Ondan da xəbərdaram ki, ölkə başçısının sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşam.

*– Bəs geridə qoyduqların – ailən, övladların xoşbəxtdirmi, səncə?..*

– Mən yaşadığım müddətdə ailəmi gücüm çatdığı qədər xoşbəxt etməyə çalışmışam. Düşünürəm ki, gedişimlə də onlara bir xoşbəxtlik bəxş etdim. Son dəfə döyüşə yollanarkən ailəm, övladlarımla görüşmək üçün yaşadığım evə üz tutdum. Oğlumu görə bilməsəm də, digərləri ilə sağollaşdım. Amma hara getdiyimi deməyə cəsarət etmədim. Çünki bilirdim, bu gedişin dönüşü olmaya da bilər. Bunu onlara izah etmək çətin idi. Bəli, dönüşü olmadı bu gedişimin, amma gözüm arxada deyil. Bilirəm ki, dövlətimiz övladlarıma mənim yoxluğumu hiss etdirmir... Birdə ki, axı mən varam, mən ölməmişəm, şəhid olmuşam. Şəhidlər ölmür. Əminəm ki, oğlum gələcəkdə mənim yolumu davam etdirəcək. Atası ilə fəxr edəcək.

*– Şəhidim, səninlə görüşə gəlməzdən əvvəl, illər öncə – 2006-cı ildə elə cəbhə bölgəsində tanış olduğun, sonradan qardaş qədər doğmalaşdığın və "Vətən uğrunda öldü var, döndü yoxdur" yolçuluğuna da birlikdə çıxdığınız dostunla da həmsöhbət oldum…Yəqin ki, artıq anlamısan kimdən söhbət edirəm: Tehran Mənsimovdan. O Mənsimov ki yarımçıq qalan arzularınızın gerçəkləşməsi yolunda ölümün gözünə dik baxdı. Bu gün səni qürurla ansa da, gözlərindəki kədəri gizlədə bilmir. Təəssüfləndiyi məqamsa, Qələbə müjdəsini səninlə bölüşə bilməməkdir. Amma şəhidim, yəqin ki, məzarın üstündə sənə pıçıldadığı sözləri, bölüşdüyü qələbə sevincini də duymusan.*

*Onun sözləri:* "Anar tanıdığım ən cəsur, ürəyi Vətən eşqi ilə döyünən igid oğullardan biri idi. Əkshücum əmri veriləndə özünə yer tapa bilmirdi. Döyüşə getmək üçün də dəfələrlə müraciət etmişdi. Qismət həmən günə imiş. Bizə döyüşə getmək üçün göstəriş gəldiyi gün Anar, sanki qanad açıb uçmaq istəyirdi. Orda iki qrupa bölünmüşdük. Bir qrupa Anar rəhbərlik edirdi. Ayrı-ayrı istiqamətlərdə döyüşsək də, sıx əlaqədə idik. Anar heç nədən qorxmadan düşmənin üzərinə şığıyırdı. Özü öndə döyüşə atılan komandirindən cəsarət alan komandası bir çox bölgələrimizi yağı tapdağından azad etdi. Sonda özü arzusunda olduğu şəhadətə qovuşdu. Bu gün Anarın yoxluğu, nəinki mənə, onu tanıyan hər kəsə ağırdı. Hər dəfə Anarı düşünəndə Hüseyn Cavidin bu sözləri təsəllim olur:

*Həyat var ki, ölüm kimi zəhərli,*
*Ölüm var ki, həyat qədər dəyərli.*

Çünki bu sözlər qeyrət, ləyaqət daşıyıcısı, şəhid himnidir. Bu himni bütün şəhidlərimiz kimi, mənim şəhid qardaşım Anar da ləyaqətlə daşıdı. Yerin behişt, ruhun şad olsun".

*Bəli, dəyərli oxucularımız. Vətən müharibəsində ürəyini qoyan yüzlərdən biri haqqında elə şəhidimizin öz dilindən sizə məlumat verməyə çalışdım. Xalqımızın müstəqillik, zəfər tarixi məhz o igidlərin adı ilə bağlıdır. Zaman ötəcək, fəsillər, illər, əsrlər, nəsillər dəyişəcək... Dəyişməz qalan isə tariximizi qanları ilə yazan o ürəklərin qəhrəmanlığı olacaq. "Şəhidlər unudulanda ölürlər", – deyirik. Ölməyəcəklər, bunu unutmayaq...*

*Şəhidlər ana yurdu tutdular candan baha,*
*Şəhidlər yollar açdı, qaranlıqdan sabaha.*
*Şəhidlər ölməz ruhla, gedir üzü Allaha,*
*Şəhidlər gedən yolu tufanlar bağlamazlar.*
*Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!*

**Telli MƏMMƏDOVA**

## Sahibkarlıq subyektləri dövlət qayğısı ilə əhatə olunub



Dünən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində "25 aprel – Sahibkarlar Günü" və "Pandemiyadan zərərçəkmiş sahibkarlıq subyektlərinin faiz borclarının subsidiyalaşdırılması" mövzularında tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri və muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən sistemli tədbirlər nəticəsində geniş sahibkarlar sinfinin formalaşdığını və bu təbəqənin sosial-iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq hər il keçirilən Sahibkarlar Günü də sahibkarlara göstərilən qayğının bariz nümunəsidir.

Bildirilib ki, İqtisadiyyat Nazirliyi tərəfindən pandemiyadan zərərçəkmiş sahələrdə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin, eləcə də maliyyə dəstəyi alacaq fərdi sahibkarların siyahısı Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fonduna təqdim edilib. Artıq bu istiqamətdə 4 sahibkarlıq subyektinə subsidiyanın ayrıldığı, digər sahibkarlıq subyektlərinin bank hesablarına mərhələli şəkildə vəsaitin köçürüləcəyini vurğulayıb. Sahibkarlara yenidən maliyyə dəstəyinin göstərilməsi barədə qərarın pandemiyadan zərərçəkmiş sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, iş yerlərinin qorunub saxlanılmasına xidmət etdiyini Xudakərim Məmmədov qeyd edib.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sektor müdiri Azər Cəfərov bildirib ki, mövcud şəraitdə iş adamlarını maraqlandıran əsas məsələlərdən biri bazar fürsətlərinin öyrənilib qiymətləndirilməsidir ki, buna da konfederasiya tərəfindən bir sıra köməklik göstərilir. Pandemiya dövründə də sahibkarların hüquqlarını qoruyan, dövlət orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edən konfederasiya yaradılan şəraitdən maksimum istifadə olunmasına köməklik edir.

"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədr müavini İsa İsayev çıxışında pandemiyanın ölkə iqtisadiyyatına ziyanlı təsirlərinin minimallaşdırılması məqsədilə həyata keçirilən dövlət dəstəyi tədbirlərində "Naxçıvanbank" ASC-nin də yaxından iştirak etdiyini qeyd edib. 2020-ci ilin dünya səviyyəsində pandemiya və onunla mübarizə ilə yadda qaldığını və ötən il ərzində davamlı şəkildə dəstək tədbirlərinin həyata keçirildiyini, tədbirlərin icrası çərçivəsində bank təşəbbüsü ilə sahibkarların mövcud şəraitdə dəstəklənməsi istiqamətində bir çox işlərin görüldüyünü vurğulayıb.

Tədbirin sonunda mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb və sahibkarların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Konfrans keçirilib

Naxçıvan Müəllimlər İnstitutunda "Aşıq Ələsgər – 200" adlı konfrans keçirilib. Tədbiri giriş sözü ilə institutun rektoru Azad Novruzov açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamı ilə bu il görkəmli söz ustadının yubileyi ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə təsdiq edilən Tədbirlər Planına əsasən muxtar respublikamızda geniş qeyd olunması görkəmli söz ustadının ədəbi irsinə yüksək qiymətdir.

Tədbirdə institutun Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru Yusif Səfərov "Aşıq Ələsgərin Naxçıvan səfəri", dosent Fəxriyyə Cəfərova "Aşıq Ələsgər yaradıcılığının dil və üslub xüsusiyyətləri", Afət Həsənova "Aşıq Ələsgər – haqqa qovuşan sənətkar" mövzularında çıxış ediblər.

Tədbir ədəbi-bədii hissə ilə yekunlaşıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Taktiki-xüsusi təlim

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə dünən Naxçıvan Beynəlxalq Hava Limanında "Obyektdə baş verən yanğının söndürülməsi, bununla bağlı xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.*



Təlim planına uyğun olaraq, ilk növbədə, hava limanının Yanğın Təhlükəsizliyi və Qəza-Xilasetmə Komandasının döyüş hazırlığının yoxlanılması məqsədilə şəxsi heyətindən "Döyüş açılışı" üzrə normativlər qəbul edilib. Sonra Yanacaq-sürtkü materialları anbarında şərti baş vermiş yanğının söndürülməsi üzrə yanğınsöndürmə qüvvələrinin fəaliyyətinin təşkilinə baxılıb, təlim yerində yanğından mühafizə bölmələrinin praktik fəaliyyətinə qiymət verilib. Anbarın yanğın cəhətdən təhlükəli obyekt olduğunu nəzərə alaraq şərti yanğının söndürülməsinə müasir texnikalar və 21 nəfər şəxsi heyət cəlb olunub.

Təlimdə, həmçinin hava gəmilərinin qəza enişi zamanı yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi, xəsarət alanların çıxarılması və onlara ilk tibbi yardımın göstərilməsi praktik şəkildə həyata keçirilib.

Təlimə Fövqəladə Hallar Nazirliyi və Naxçıvan Beynəlxalq Hava Limanında, ümumilikdə, 131 nəfər şəxsi heyət, 6 ədəd yanğınsöndürmə avtomobili, 6 ədəd xüsusi təyinatlı texnika, idarəetmə və rabitə vasitələri cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Şərur rayon Çomaxtur kənd sakini İsmayılov Fizuli İsa oğlunun adına verilmiş JN-284A inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 345